# 2022-ci il ərzində idxal olunmuş mallara tətbiq edilmiş sadə orta, ortaçəkili tarif dərəcələri, “0%” tarif dərəcəsi və sərbəst ticarət sazişləri imzalanmış ölkələrdən preferensial qaydada idxal gömrük rüsum dərəcələri barədə məlumatlar

1) **2022-ci ilin 12 ayı üçün ortaçəkili tarif dərəcəsi hesablanarkən aşağıdakı parametrlərdən istifadə edilmişdir :**

a) 12 aylıq idxal əməliyyatlarının həcmi;

b) 12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi.

12 ay ərzində idxal əməliyyatlarının həcminin **14 539 858 500** ABŞ dolları olduğunu nəzərə alsaq (statistik dəyər ABŞ dolları ilə ifadə olunduğu üçün), həmin dövr üçün onların ümumi gömrük dəyəri **24 717 759 450** manata bərabər olur:

Gömrük$_{dəy}$ = **14 539 858 500* 1.7 manat = 24 717 759 450 manat**

12 ay ərzində toplanmış idxal gömrük rüsumlarının həcmi **1 419 968 700** manata bərabər olduğu üçün, bu rəqəm idxal edilmiş malların ümumi gömrük dəyərinin **5.74%** təşkil edir (Cədvəl 1).

***Cədvəl 1. Ortaçəkili tarif dərəcəsinin hesablanması.***

| İDXAL EDİLMİŞ MALLARIN ÜMUMİ GÖMRÜK DƏYƏRİ (AZN) | İDXAL EDİLMİŞ MALLAR ÜZRƏ GÖMRÜK RÜSUMLARININ MƏBLƏĞİ (AZN) | SADƏ ORTA TARİF DƏRƏCƏSİ (%) |
|---|---|---|
| **19 899 837 356** | **1 205 507 800** | **5.74** |

2) **2022-ci il üzrə tarif xəttləri üzrə sadə orta tarif dərəcəsi 7,96% təşkil etmişdir.** Sadə orta tarifin hesablanmasında “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 noyabr 2017-ci il tarixli 500 nömrəli Qərarında tətbiq olunan idxal gömrük rüsumlarının dərəcələrinin tarif xəttlərinə nisbəti əsasında müəyyənləşdirilir:

Tarif xəttlərinin sayı (Txs) – **10789**
Rüsum dərəcələrinin məcmusu (Rdm) = (0% x 3155) + (5% x 2140) + (15% x 5012) = 85880

**Sadə orta tarif = Rdm/Txs=85880/10789=7.96%**

3) **Müxtəlif mal mövqelərinə tətbiq edilən advalor gömrük rüsumlarının tarif dərəcələri ilə bölgüsü, spesifik gömrük rüsum dərəcələri və onların sayları. (Cədvəl 2)**

***Cədvəl 2. Tarif dərəcələrinin XİFMN üzrə bölgüsü.***

| Tarif dərəcəsi | XİFMN üzrə alt yarımmövqelərin sayı |
|---|---|
| **0%** | 3155 |
| **5%** | 2140 |
| **15%** | 5012 |
| **Spesifik** | 482 |
| **Cəmi** | **10789** |

4) **2022-ci il üzrə ölkə ərazisinə idxal edilən malların 26.3 faizi "0" faiz idxal tarif dərəcəsinə cəlb olunmuşdur (Cədvəl 3):**

***Cədvəl 3. 0% idxal gömrük rüsum dərəcəsinə cəlb edilmiş idxalın həcmi.***

***(ABŞ dolları ilə)***

| Dövr | İdxalın həcmi | "0%" dərəcə ilə idxal | "0%" tarif dərəcəsi ilə idxalın xüsusi çəkisi %-lə |
|---|---|---|---|
| **01.01.2022-31.12.2022** | **14 539 858 500** | **3 830 258 600** | **26.3%** |

5) **2022-ci il üzrə ölkə ərazisinə ikitərəfli və çoxtərəfli qaydada imzalanmış sərbəst ticarət sazişlərinin (STS) müddəalarına əsasən idxal gömrük rüsumundan azad edilməklə idxal edilən malların ümumi idxalda çəkisi 26.3 faiz təşkil etmişdir (Cədvəl 4):**

***Cədvəl 4. STS ölkələrindən preferensial idxalın həcmi***

***(ABŞ dolları ilə)***

| Dövr | İdxalın həcmi | STS ölkərindən idxal | STS ölkərindən preferensial idxalın xüsusi çəkisi %-lə |
|---|---|---|---|
| **01.01.2022-31.12.2022** | **14 539 858 500** | **2 980 832 300** | **20.5%** |